**Arif Sədrəddin oğlu Kazımov**

# TAMAMLIQLARLA BƏZİ ZƏRFLİKLƏRİ NİYƏ FƏRQLƏNDİRƏ BİLMİRİK ?

**(Səbəbləri, çətinliklər və aradan qaldırılması yolları)**

**Aktuallıq:** Tədris prosesində cümlə üzvlərinin fərqləndirilməsi xüsusi aktuallıq kəsb edir. Aparılan müşahidələrdən və qabaqcıl təcrübəsindən məlumdur ki, linqvistik təhlil prosesində orta məktəb şagirdlərinin, eləcə də, ali məktəb tələbələrinin çoxu adı çəkilən sintaktik kateqoriyaları müəyyən etməkdə ciddi çətinliklərlə üzləşməli olur.

**Giriş:** Elm və Təhsil Nazirliyinin, DİM- nin təşkil etdiyi imtahanların nəticələrindən , müəllimlərlə söhbət və apardığımız müşahidələrdən aydın olur ki, orta məktəb şadirlərindən tutmuş mütəxəssislərə qədər çoxları hələ də iki sintaktik kateqoriyanın(tamamlıq və zərfliyin) spesifik əlamətlərini düzgün müəyyənləşdirə bilmir, demək olar ki, hər addımda(tədris prosesində) çətinliklə üz-üzə qalırlar.

Sual oluna bilər ki, bəs tədris prosesində mövcud çətinliyi törədən səbəblər hansılardır? Fikrimizi əsaslandırmaq üçün bəzi səbəbləri sadalayaq:

1.Tamamlıqla bəzi zərfliyin fərqləndirilməsində ciddi çətinliyə səbəb olan cəhətlərdən biri indiyədək istər nəzəri, istərsə də metodik ədəbiyyatda bu məsələyə dair fikir müxtəlifliyinin mövcudluğu, konkret fikrin olmamasıdır.

2. Tamamlıqla zərfliyin bir sıra oxşar cəhətləri mövcuddur ki, bunlar həmin cümlə üzvlərini dəqiq şəkildə fərqləndirməyə mane olur. Belə ki, yönlük, yerlik və cıxışlıq( bəzən də təsirlik) hallarında olan sözlər və birləşmələr cümlədə həm tamamlıq, həm də yer zərfliyi ola bilir və s.

3.Hər iki sintaktik kateqoriya eyni qoşmalarla(ən çox ilə, üçün, ötrü,qədər və.s) işlənə bilir. Belə ki, üçün, ötrü qoşmalı sözlər və birləşmələr həm tamamlıq, həm də səbəb və məqsəd zərfliyi, yaxud -la, -lə (ilə) qoşmalı sözlər və birləşmələr isə vasitəli tamamlıq və tərzi-hərəkət zərflikəri yerində işlətmək olur.

4. Hər iki sintaktik kateqoriya eyni morfoloji vahidlə, yəni eyni nitq hissəsi( bəzən də eyni sözlə) ilə ifadə olunur.

5. Tamamlıqla zərfliyin fərqləndirilməsində çətinlik yaradan vasitələrdən biri də cümlə üzvlərinə aid qoşa suallıqdır. Çünki həm səbəb, həm də məqsəd zərflikləri *niyə? nə üçün*?, həm təyin,həm də tərzi-hərəkət zərflikləri *necə? nə cür*?,həm kəmiyyət,həm də təyin *necə?* və. s suallarına cavab verir. Məsələn, *Uşaq dənizə(haraya? nəyə?) baxır. Qələmi çantadan(haradan? nədən?) götürdüm və.s* . Bu hal ondan irəli gəlir ki, həmin sözlərdə cümlədə əşyanın məzmunu ilə yanaşı məkan məzmunu və ya əksinə məkan məzmunu ilə birlikdə əşyalıq məzmunu da yaranır.

Çünki cümlə üzvü kimi işlənən söz mütləq müəyyən suala cavab olmalıdır. Düzü, bəzi hallarda cümlə üzvünə münasib sual verməyin mümkün olmaması onun cümlə üzvü vəzifəsində işləndiyini şübhə altına almağa əsas vermir. Digər tərəfdən bu çətinlik həm də onunla bağlıdır ki, fərqli cəhətlər nə orta məktəb dərsliklərində, nə də digər müvafiq ədəbiyyatlarda aydın şərh edilməmişdir.

6. Hər iki üzv bilavasitə xəbər zonasına daxildir,xəbəri izah edir.Çünki o söz cümlənin tamamlığı və ya zərfliyi kimi götürülə bilər ki, həmin söz cümlənin xəbəri ilə birbaşa bağlı olmalıdır.

İndi isə yuxarıda sadaladığımız səbəblərin hər biri haqqında daha ətraflı bəhs edək:

Öncə qeyd edək ki, dilçi alim və metodistlər hər iki üzvün fərqləndirilməsində müxtəlif mülahizələr irəli sürərək aşağıdakı kriteriyaları əsas götürmüşlər.Mərhum prof. M.Hüseynzadə, prof.H.Həsənov, ismin yönlük, yerlik və çıxışlıq hallarında işlədilən isimlərin və feillərin leksik mənasını, prof. Ə. Abdullayev, prof. M. Həsənov məzmunu,prof. Z. Tağızadə leksik-semantik mənanı, dos. B.Rəhimova xəbərin mütəhərrik və ya qeyri-mütəhərrik feillərlə ifadəsini, prof. B. Əhmədov, prof. Q. Kazımov, dos. R. Hümmətova isə üzvlərin fərqlənməsində onların sintaktik-semantik funksiyasına diqqət yetirməyi lazım bilmişlər...

Fakt və mənbələrə müraciət edək;

Prof. M. Hüseynzadə “ Müasir Azərbaycan dili”(dərsliyində) cümlədəki sözlərin tamamlıq və zərflik kimi işlədilməsində sözün leksik mənasını əsas götürmüşdür. Müəllif öz fikrini əsaslandırmaq məqsədi ilə verdiyi nümunələrdən bunu bir daha aydın görmək mümkündür. Məsələn, ***Mən kitaba baxıram. Uşaq dəftərə yazır. Qardaşım kitabı Rəşidə verdi.*** **Cümlələrində** ***kitaba, dəftərə, Rəşidə*** **sözləri tamamlıq,** ***O evə getdi, Surxay məktəbə gəlir, Ramiz oxumağa gedir*** **və .s cümlələrində** ***evə, məktəb, oxumağa*** sözləri isə zərflik adlandırılmışdır [ 1. 102].Bu mülahizə uzun müddət “kitabdan kitaba ötürülərək” əsas mənbə kimi götürülmüşdür.

Prof. H. Həsənov” Qrammatik təhlilin aparılması qaydaları” vəsaitində M. Hüseynzadənin mövqeyini müdafiə edərək yazır:” Vasitəli tamamlıqla yer zərfliyini bir-birindən fərqləndirərkən M. Hüseynzadənin fikrini əsas götürmək lazımdır[2.55].

B. X. Rəhimovada dolayı yolla əvvəlki həmkarlarının fikrini müdafiə edərək qeyd edir ki, əşya anlayışını ifadə edən ikinci dərəcəli üzv tamamlığa, məkan və zaman anlayışı ifadə edən ikinci dərəcəli müstəqil üzv isə zərfliyə aid edir.[3.23-25].

Şübhəsiz, nitq hissəsinin semantikası cümlə üzvünün müəyyənləşdirilməsində mühüm rol oynayır. Lakin sözün leksik mənası ilə cümlə üzvünün sintaktik-qrammatikfunksiyasını eyniləşdirmək olmaz. Çünki bəzi üzvlərin leksik mənası ilə semantik- sintaktik mənası arasında kəskin fərqlər ola bilər ki, bu da həmin üzvlərin xarakterini müəyyənləşdirmək işini çətinləşdirir. Fikrimizi gətirdiyimiz nümunələrlə əsaslandırmağa çalışaq. Məsələn, O zənbili əlində apardı cümləsində əlində sözünə leksik-morfoloji baxımdan *nədə?* sualını

vermək mümkündür. Halbuki bu cümlə üzvü kimi necə? sualına cavab olur: ***necə apardı-əlində.*** Yaxud "***Parçaya bir daha işıqda baxdım***" cümləsində ***parçaya nədə baxdım?-ışıqda.*** Verilən sual cümlənin məntiqi mənası ilə uyuşa bilmir. Semantik-sintaktik baxımdan həmin üzvə *nədə?* deyil, *harada* sualını vermək tələb olunur. Axı *nədə?* tamamlığın sualıdır, halbuki qeyd etdiyimiz cümlədə *işıqda* söz yer zərfliyidir. Cümlədə həmin üzvün semantik- sintaktik mənasına diqqət yetirsək, müəyyən edə bilərik ki, ışıqda sözü hərəkətin yerini bildirir; o işığın altında, işıqlı yerdə ifadələrinə ekvivalent kimi işlənmişdir.

**Qonaqlar gecəni bizdə qaldılar** cümləsində **bizdə** sözünə **kimdə?,** yoxsa **harada?** sualının verilməsi münasib olduğunu söyləmək bəzən çətinlik kimi qarşıya çıxır.

Aydın məsələdir ki, ayrılıqda ona yalnız kimdə? sualını vermək mümkündür. **Bizdə təqsir yoxdur, Yarışın kuboku bizdə qaldı** və müəyyənləşdirməkdə vasitə rolunu oynayır. Elə buna görədir ki, məsələn,mübtəda kim?, nə? sualları ilə yanaşı bəzən kimlər? nələr? necə? hansı? kimi suallara da cavab ola bilir: "**23 tək rəqəmdir"(necə?), "həyətdəki bizim uşaqdır"(hansı?).** Bəzən mübtəda cansız əşya, yaxud heyvan bildirən isimlə ifadə olunduğu halda, kim? Sualına cavab ola bilir; məsələn, "**Bakı yarışda qalib gəldi", "Ana keçi qapını taqqıldatdı"** cümlələrində olduğu kimi.

Digər tərəfdən bir sıra cümlələrdə cümlə üzvünə konkret sual verməyin mümkün olmadığı hallara da az təsadüf edilmir. Təkcə bunu qeyd etməyimiz kifayətdir ki, cümlənin xüsusiləşmiş üzvlərinə əks hallarda sual vermək mümkün olmur və.s.

Göründüyü kimi tamamlıqla zərfliyin fəqləndirilməsindəki çətinlik bu iki üzvün "təbiətindən" irəli gəlir. Hər iki üzvün obyektiv xarakterə malik olmasını dilçi alimlərin əsərlərində də görmək olur.

Düzdür, müxtəlif vəzifələrdə işlənən sözün mənasında bu və ya digər cəhət ( məsələn obyekt mənası) güclənə bilər, ona görə də bu məqamda cümlə üzvünün leksik mənasına diqqət yetirmək lazım gəlir. Lakin bütövlükdə sözün leksik mənasına əsasən, cümlə üzvlərini fərqləndirmək elmi cəhətdən ciddi səhvə yol vermək deməkdir.

2. Prof. Z.Tağızadə də tamamlıqla zərfliyin fərqləndirilməsində leksik-semantik mənanı əsas meyar kimi götürmüşdür:"hallarda tamamlıq və ya zərflik yerində işlədilmiş söz və birləşmələrin leksik-semantik mənaları mühüm rol oynayır [4.59]. Lakin müəllif fikrini əsaslandırmaq üçün heç bir nümunə göstərməmişdir.

Sonra müəllif yekun qənaətində belə bir mülahizəni müdafiə edir:"...***əgər söz əşyanın yerini bildirirsə, tamamlıq, hərəkətin yerini bildirdikdə isə zərflik götürmək lazımdır***"

Bizcə, bu cür yanaşma elmi cəhətdən ziddiyyətlidir. Onda "***Qoruqda çaqqal var***", ***Albomda şəkil var***" cümlələrindəki*qoruqda, albomda*sözlərinin hər ikisinə tamamlıqda deməli olarıq. Tamamlıq və zərflik yerində işlədilən sözün əşya və ya hərəkətin yerini bildirib-bildirməməsi nöqsanlı tendensiyadır və təlimə zərərindən başqa xeyri ola bilməz

**3.** H.Həsənov isə vasitəli tamamlıqla yer zərfliyini fərqləndirmək üçün xəbəri qeyri-mütəhərrik feillə ifadə olunan cümlədəki sözü tamamlıq, xəbəri mütəhərrik feillə ifadə olunan cümlədəki sözü isə zərflik adlandırmışdır:" ***Əşya məzmunlu sözlər əsasən qeyri- mütərrik, məkan məzmunlu sözlər isə mütəhərrik hərəkət bildirən feillərlə əlaqəyə girir"*[2 , 55].** Təbii ki, əgər müəllifin dediklərinə əsaslansaq, onda "***Buranı yığışdır*" və "*Kitablarını yığışdır***" cümlələrindəki *buranı* və *kitablarını* sözlərinin hər ikisini eyni bir üzv- ya zərflik, ya da tamamlıq kimi izah etməli olarıq. Çünki hər iki cümlənin xəbəri eyni feillə ifadə olunmuşdur. Halbuki b*uranı* zərflik, *kitablarını isə* tamamlıqdır.

5.Prof. Ə. Abdullayev isə tamamlıq və zərflik kimi anlaşılan sözləri dəqiq müəyyənləşdirmək üçün məzmunun əsas götürülməsini tövsiyə edir və həmin sözlərə məzmuna əsasən sual verməyi lazım bilir. Müəllif yazır:" Eyni fikri yönlük və yerlik hallarda olan isimlərin sintaktik vəzifəsi barədə də söyləmək olar.

1. **Oqtay kitabı portfelə qoydu.**
2. **Oqtay kitabı şkafa qoydu.**

*Portfel* əşya məzmunu daşıdığı üçün o, tamamlıq kimi müəyyənləşir.*Portfelin* sabit yeri yoxdur( o, bir yerdən asıla bilər, stolun üstündə, şagirdin əlində ola bilər və.s). *Şkaf* məkan məzmunlu olduğu üçün bu cümlədə yer zərfliyi olur. [5 .150].

Şübhəsiz, müəllifin təqdim etdiyi nümunələrdəki(portfelə,şkafa) sözlərinin tamamlıq və yaxud zərflik olması üçün onların" sabit yerə malik olub-olmaması" şərti ,fikrimizcə, əsas kriteriya kimi götürülə bilməz.Çünki hər iki sintaktik kateqoriyanın fərqləndirilməsində "sabit yerin olub-olmaması" o qədər önəmli deyildir.

Müəllif məqalənin sonunda öz fikrini aşağıdakı şəkildə ümumiləşdirmişdir:

a)Yer zərfliyi olan isimlər isimlər iş və hərəkətin icra olunduğu yeri göstərir. Belə isimlər haraya? harada? haradan? suallarından birinə cavab olur. Bu suallar mənanın tələbinə əsasən verilməlidir.

b)İnsan, heyvan və əşya ifadə edən isimlər cümlədə yer zərfliyi deyil, vasitəli tamamlıq olur.

c)Yer(məkan) bildirən isimlər yönlük, yerlik və çıxışlıq hallarda əsasən yer zərfliyi olur.

ç)Bəzən xüsusi hallarda da, cümlədən asılı olaraq, yer(məkan) məzmununun üstün olmasına diqqət yetirmək lazımdır. Yer(məkan) məzmunu üstün olarsa, yer zərfliyinin, əşya məzmunu olarsa, vasitəli tamamlığın sualını vermək lazım gəlir[ , 55].

6.Q.Kazımov isə cümlə üzvlərinin fərqləndililməsində ümumi semantik vəzifəni ön plana çəkmişdir. Müəllifin qənaətinə görə, cümlə üzvlərini fərqləndirmək üçün hər şeydən əvvəl, həmin üzvlərin semantik-sintaktik funksiyasına diqqət yetirilməlidir. Sonra isə müəllif etiraf edir ki, dildə elə faktlar mövcuddur ki,

onlarda ikili xüsusiyyət( obyekt və yer, obyekt və səbəb,obyekt və məqsəd, obyek və tərz və.s) birlikdə müşahidə olunur. Müəllif fikrini belə yekunlaşdırır:" **Bu cür hallarda dil duyumunun dərəcəsi bu və ya digər tərəfə üstünlük verilməsinə səbəb olur"**[6.124]. Göründüyü kimi müəllif cümlə üzvlərini fərqləndirməkdə semantik-qrammatik funksiyanı həmişə əsas meyar-kriteriya kimi götürməyin tərəfdarı olsa da, yenə də üstünlüyü dil duyumunun dərəcəsinə verməyi münasib bilir. B. Əhmədov da bu və ya digər sözün, birləşmənin hansı üzv yerində işlədilməsini müəyyən etmək üçün ilk növbədə semantik-qrammatik prinsipdən çıxış etməyi məsləhət görür. Bu barədə müəllif yazır:" ***.....sözün, birləşmənin hansı üzv yerində işlədilməsini müəyyən etmək üçün onun ümumi qrammatik mənasına diqqət yetirilməlidir. Belə ki, əgər həmin söz və ya birləşmə daha çox"məkan" anlayışı ifadə etdikdə zərflik, "əşyalılıq" anlayışı üstün olduqda isə tamamlıq kimi şərholunmalıdır"***[7.31]. Dos.R. Hümmətova da əvvəlki həmkarlarının fikrini bir növ təsdiqləyir:" Zərfliklə tamamlığı fərqləndirmək üçün hər şeydən əvvəl, həmin cümlə üzvlərinin semantik xüsusiyyətlərinə, funksiyasına diqqət yetirmək lazımdır"[8, 170].

Hətta mərhum prof. Ə.Əfəndizadə həmkarlarından fərqli olaraq, təsirlik halında işlənən sözlərin həmişə tamamlıq kimi götürülməsini daha düzgün və məqsədəuyğun olduğunu qeyd edir.Müəllif bu barədə öz fikrini iki səbəblə belə əsaslandırmışdır:" 1) şagirdlər dərk etməlidir ki, ismin təsirlik halı,əslində, obyekt halıdır; elə buna görə də həmin halda işlənən cümlə üzvündə əşyalıq anlayışı qüvvətli olur və o, cümlənin vasitəli tamamlığı kimi çıxış edir; 2) şagird dərk etməlidir ki, cümlə üzvünü müəyyənləşdirməkdə sualı heç də həmişə əsas əlamət hesab etmək olmaz [ 9.144].

Şübhəsiz, sadaladığımız nəzəri və metodik tövsiyələrin əksəriyyəti hər iki sintaktik kateqoriyanın fərqləndirilməsinin optimal yollarından daha çox, çətinliklərinin mövcudluğundan bəhs olunur. Bəs hansı metodik priyom və vasitələrlə adı çəkilən üzvləri fərqləndirə bilərik?

1.Məlumdur ki, tamamlıqlar yalnız üzərində iş icra olunan obyekti bildirmir,həmçinin işin icra vasitəsini də bildirir.(*Su ilə yuyunuram. Qələmlə yazıram*), zərfliklər isə icranın vasitəsini yox, tərzini, yerini və.s ifadə edə bilir; məsələn, *Qapı taqqıltı ilə örtüldü, Hacı küçə ilə gedirdi...*

2. Tamamlıq işin icrasında iştirak edən əlavə şəxsi(*Arzu ilə işləyirəm)*,zərfliklər isə belə hallarda ən çox tərz bildirir; məsələn,*Usta ürəklə işləyir. Maşın sürətlə keçdi***.**

3.Zərfliklərə oxşar olan bəzi tamamlıqlarda çıxışlıq hal şəkilçilərinin əvəzinə *barəsində, dair, haqqında* və s. qoşmalar işlətmək olur, zərfliklərdə isə həmin qoşmaların yerinə ***üçün,görəvə s. artırmaq mümkündür; məsələn, Döyüş vaxtı şeir deməz şair güldən-çiçəkdən( gül haqqında,çiçək haqqında; gülə dair,gül barədə və.s), Qorxudan(qoruxduğum üçün, qorxduğuma görə..)***

**4.** Tamamlıqlar konkretlik ifadə etdiyi üçün onlara istiqamət bildirən qoşma artırıldıqda məna nəzərə çarpacaq qədər dəyişir, zərfliklər isə ümumilik bildirdiyindən dəyişiklik o qədər də hiss olunmur; məsələn, *Əhməddən səs çıxmadı(Əhməd tərəfdən səs çıxmadı*desək başqa məna alınır), *Dağdan səs gəlir ( Dağ tərəfdən desək*mənada ciddi dəyişiklik alınmaz), *Ağaca çıxdı ( Ağaca doğru çıxdı deyə bilmərik) , Evə getdi( Evə doğru getdi demək olar)*

**5.** Zaman zərfliklərindəki şəkilçiləri zaman bildirən sözlərlə əvəz etmək olur; məsələn, yayda (yay vaxtı, yay zamanı,yay olanda və.s). Tamamlıqlarda bu, mümkün deyildir; məsələn *İldə on iki ay var* cümləsindəki ildə tamamlığının əvəzinə **il vaxtı, il zamanı** və.s. işlədə bilmərik.Çünki ildə tamamlığı zaman anlayışı bildirmir.

6.Tamamlıqlarla zərfliklərin fərqləndirilməsindəki çətinliklərin bir səbəbi də onların qoşa suala cavab verməsindən irəli gəlir;

a) **Nə üçün**? sualı **niyə?** mənası verərsə, vasitəli tamamlıq yox, səbəb və ya məqsəd zərflikləri meydana çıxır.(*Yaxşı hazırlaşmadığım üçün müəllim razı qalmadı)*

b) **Haranı?** sualına cavab verən üzv əgər xəbərlə bağlanırsa, həmişə tamamlıqdır, belə söz və ya söz birləşməsi zərflik hesab edilmir: *(Qonaqlar şəhəri gəzdilər*)

c) Yer zərfliyinin sualları tamamlığın bəzi sualları ilə eynidir. Əgər **hara?** sualına (yönlük,yerlik və çıxışlıq hallarında) cavab verən üzv eyni zamanda **nə**? (ismin göstərilən hallarında) sualına da cavab versə, vasitəli tamamlıqdır, təkcə hara (ismin göstərilən hallarında) sualına cavab versə, yer zərfliyidir**.** *Qələmi çantadan( haradan? nədən?-tamamlıq) götürdüm.Onlar kənddən (haradan?-zərflik) gəldilər.*

ç) *Biz, siz, onlar* şəxs əvəzlikləri yönlük, yerlik və çıxışlıq hallarda yer zərfliyi də ola bilir*.(Qonaqlar bizdə qaldılar***)**

d) Tamamlıq və zərflikləri fərqləndirmək üçün əlavədən də istifadə etmək olar.*Qonaqlar gecəni bizdə qaldılar* cümləsində *bizdə* sözünün hansı cümlə üzvü yerində işləndiyini müəyyən etmək üçün həmin cümlədəki eyni üzvü ya həmcinsi,ya da əlavəsi ilə əvəz etmək olar. Cümlədəki *bizdə* sözünü onun *bizim evdə, ata evimizdə, əmimgildə* və s. kimi ekvivalentləri ilə əvəz etmək kifayətdir.

e) ilə qoşmasını konkret və mücərrəd isimlərə qoşmaqla tamamlıqla zərfliyi fərqləndirmək olar. Belə ki, ilə qoşmasını qəbul edən söz mürərrəd isim olduqda, çox zaman tərzi-hərəkət zərfliyi kimi, konkret isimlə birləşən ilə qoşması vasitəli tamamlıq kimi müəyyənləşir. Məsələn:*Uşaq heyrətlə baxırdı*(tərzi-hərəkət zərfliyi), *Uşaq lentlə oynayır*(vasitəli tamamlıq).və.s

ə) *üçün* qosması birbaşa isimlərə artırıldıqda vasitəli tamamlıq əmələ gətirir. Məsələn: *Dərman üçün apteka daxil oldum.*

**Üçün** qoşması məsdər və feili sifətə, yaxud bu formaların əmələ gətirdikləri tərkiblərə artırıldıqda isə zərflik olur. Məsələn:*Gecikdiyim üçün danladılar. İmtahanda yaxşı nəticə əldə etmək üçün ciddi hazırlaşıram.*

f) birinci növ ismi birləşmələrin tərəfləri birlikdə çox vaxt zərflik yerində işlənir. Məsələn: 1. Zaman zərfliyi kimi- bu vaxt ikinci tərəfdə *"zaman", "an", "vaxt", "gün", "saat"," dəqiqə"* və.s zaman anlayışlı sözlər işlənir. Məsələn: Bu gün şəhərimizin həyatında şərəfli və tarixi bir gündür.

2.Yer zərfliyi kimi- ikinci tərəfdə çox vaxt "yer" sözü işlədilir. Məsələn:*Təmizlik olan yerdə xəstəlik olmaz.*

3. Tərzi-hərəkət zərfliyi kimi- Məsələn: *Sonra tamam qeyri-şüuri bir hərəkətlə irəlilədi. Balacalar maraqlı gözlərlə maşından düşənləri seyr edirdilər.*

g) Formal olaraq təsirlik hal şəkilçisi qəbul edən, əslində isə təsirlik hal yox, zaman mənası bildirən sözlər cümlədə zaman zərfliyi ola bilir. Müqayisə et: *Gecəni (nə vaxt) yatmamışam. Gecəni (nəyi?) bir təhər başa vurduq.Yayı(nəyi?) Şuşada keçirdim. Yayı (nə vaxt?) Şuşada oldum.*

Fikrimizcə, eyni formalı söz cümlə daxilində işlənmə mövqeyindən, əlaqələndiyi feildən, cümlənin məzmunundan, buna əsasən də tələb etdiyi sualdan da asılıdır.

**Nəticə:** Cümlədə eyni formalı sözün tamamlıq və ya zərflik olduğunu müəyyənləşdirmək üçün yalnız bir kriteriya (fərqləndirmə cəhəti ) ilə kifayətlənmək olmaz. İlk növbədə həmin sözün cümlədə işlənmə mövqeyinə, əlaqələndiyi feilə,cümlənin məzmununa və bunlara əsasən də tələb etdiyi suallara istinad etmək vacib və lazımdır. Əks təqdirdə adı çəkilən sintaktik anlayışların fərqləndirilməsində şagirdlər və müəllimlər bəzi çətinliklərlə üzləşməli olacaqlar.

**İstifadə olunmuş ədəbiyyat**


1. Hüseynzadə. M. Müasir Azərbaycan dili(dərslik),Maarif, 1954,s. 268.
2. Həsənov.H Qrammatik təhlilin aparılması qaydaları, ADU,1982 ,s. 68.
3.Abdullayev. Ə Azərbaycan dili məsələləri,- Bakı: ADU, 1992,s. 329
4.Rəhimova.B Tamamlıqla zərfliyin fərqi haqqında "Azərbaycan dili və ədəbiyyat tədrisi" jur №4 , Bakı- 1960.
**5.**Əhmədov.Ə. Görkəmli pedaqoq-alim. "Təhsil"şriyyatı,2005.s.140-141
6.Q. Kazımov. Müasir Azərbaycan dili(sintaksis), Bakı: 2000,s. 485
7.B.Əhmədov V sinifdə Azərbaycan dilidərsləri(metodik vəsait),"Maarif"-1977.
8. R. Hümmətova. Linqvistik təhlilin elmi-metodik əsasları, (dərs vəsaiti), Bakı: 2017.
9.Ə.Əfəndizadə.Azərbaycan dilindən suallar və cavablar,Bakı-2019, s 162
10.M. Həsənov .Sintaksisin tədrisində qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması, Bakı-1966, "Maarif", s. 367


**Xülasə**


Məqalədə bu sahəyə dair indiyədək nəşr olunmuş nəzəri və metodik ədəbiyyat təhlil "süzgəcindən" keçirilmiş, mövcud nöqsan və qüsurlar elmi dəlillərlə əsaslandırılmışdır. Tədris prosesində tamamlıq və bəzi zərfliklərin fərqləndirilməsinə dair optimal üsul və vasitələr göstərilmişdir

**Metodlar:**Məqalədə pedaqoji müşahidə, müqayisə, anket sorğusu, pedaqoji konsilium,təhlil, nəticə çıxarma və ümumiləşdirmə metodlarından istifadə olunmuşdur.


**Why cant we distinguish between complements and some adverbs?**
**(Causes, difficulties and ways to overcome)**

**Summary**


The article talks about the difficulties encaintered during the process of teaching the syntactic course, when differentiating the parts of the sentence in particular, some adverbs. Although many articles have been written in the theoretical (linguistic) or methodical aspect, and various opinions have been expressed, until now all people from high school students to specialists, still cannot correctly iden tify the specific features of those two syntactic categories, almost at every step they face difficulties they appear. İn the article, first of all, examples of linguistic literature were analyzed and the affitude to eash opinion was expressed. The essence and content of the criteria based on the authors are explained with full facts and justified with examples. One of the results obtained in the article is that the presence of different and contradictoru views in the linguistic literature, the abundance of controversial points, has caused some difficulties in distinguishing the syntactic categories that we have mentioned, At the same time, not only high school, but also high school textbooks do not provide information on the differentiation of those categories, or episodis information of a note nature is encaintered. İn the article, the reasons for differentiat ing some adverbs have been investigated in detail, and a number of ways out have been shown to help the teaching process.



**Key words:** ***syntactic separation, criterion, episodis information, linguisties literature, methodical aspect.***


**Почему мы не можем отличить дополнения от некорых наречий?**
**(Причины, трудности и пути преодоления)**

**Rезюме**


Встатье говорится о трудностях, возникающих в процессе обучения синтаксическому курсу при дифференцированы и частей предложения, в частности некоторых наречий. Хотя по этому вопросу написано немало статей, как в теоретическом (лингвистическом), так и в методическом аспекте, и

высказаны различные мнения до сих пор не могут правильноопределить специфические черты этих двух явлений синтаксических категорий, почти на каждом этапе возникают трудности.

В статье прежде всего, были проанализированы примеры лингвистической литературы и выражено отношение к каждому мнению. Сущность и содержание критериев, по мнению авторов, подробно объяснены и обоснованы примерами.

Один из результатов, полученных в статье, заключается в том,что наличие разных и противоречивых взглядов в лингвистической литературе, обилие спорных моментов, обусловили некоторые трудности в выделении упомянутых нами синтаксических категорий категорий.

В то же время не только в школьных, но и в старших учебниках не даются сведения о дифференциации этих встречаются эпизодические сведения немного характера. В статье подробно исследованы причины дифференциации некоторых наречий и показанряд выходов, помогающихучебномупроцессу.

***Ключевые слова:***синтаксическая категория, критерий, эпизодическая информация, лингвистическая литература, методологический аспект**.**

**Röyçi: dos. S.Abbasova**